# Belçikada Xurşidbanu Natəvanın heykəlinin açılışı olub

Fevralın 18-də Heydər Əliyev Fondunun dəstəyi ilə Belçika Krallığının Vaterlo şəhərində Azərbaycanın görkəmli şairəsi Xurşidbanu Natəvanın abidəsinin açılış mərasimi keçirilib.

Açılış mərasimində çıxış edən Azərbaycanın Belçikadakı səfiri Fuad İsgəndərov qeyd edib ki, bu layihənin reallaşması Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi sayəsində mümkün olub. Bildirilib ki, Bu əlamətdar hadisə Azərbaycanla Belçika arasında humanitar əlaqələrdə yeni bir səhifədir.

Vaterlo şəhərinin meri Floran Röter çıxışında Azərbaycanla əməkdaşlıqdan məmnunluq ifadə edib və şəhərdə Xurşidbanu Natavanın abidəsinin ucaldılmasını yüksək qiymətləndirib.

Vurğulanıb ki, Xurşidbanu Natəvanın heykəlinin Avropanın tarixində xüsusi rol oynamış, hazırda Belçikanın turizm şəhərlərindən olan Vaterlo şəhər parkında qoyulması Azərbaycan tarixi və mədəniyyətinin dünyada tanıdılması baxımından əhəmiyyətlidir. Şuşada anadan olan Xurşidbanu Natəvanın Belçikada ucaldılmış heykəli, həmçinin Qarabağ xanlığının tarixini özündə təcəssüm etdirir. Heykəlin postamentində "Şərqin müasir maarifçi və şairə qadını Xurşidbanu Natəvan, Qarabağ şahzadəsi, Azərbaycan" sözləri yazılıb. Özündə Qarabağla bağlı qeydi əks etdirən bu abidənin Belçikada ucaldılması Azərbaycan həqiqətlərinin yaşadılması və dünyada tanıdılması istiqamətində aparılan işlərə bir töhfədir.



Qeyd edək ki, Vaterlo şəhərinin mərkəzi parkında ucaldılmış heykəl Azərbaycanın Xalq Rəssamı Tahir Salahovun rəhbərliyi ilə heykəltəraş İmran Mehdiyev tərəfindən hazırlanıb.